# TƏHSİLİN İDARƏOLUNMASININ MƏLUMAT SİSTEMLƏRİNİN TƏTBİQİ SAHƏSİ ÜZRƏ 2011-Cİ İLDƏ GÖRÜLMÜŞ İŞLƏRƏ DAİR HESABAT

TİMS şöbəsində 2011-ci il ərzində iş planına uyğun olaraq aşağıdakı istiqamətlərdə işlər görülmüşdür:

**I. Rəhbərlik tərəfindən şöbəyə həvalə edilən və şöbənin kurasiyasında olan sahələr üzrə görülən işlər.** Ümumtəhsil məktəblərində (IX və XI siniflərdə) buraxılış imtahanlarının keçirilməsi, qiymətləndirilməsi və məlumatların İnternetdə yerləşdirilməsi işinə kömək göstərilmişdir.

Əsas və orta təhsil kursu üzrə Nazirlik tərəfindən mərkəzləşmiş qaydada keçirilən buraxılış sınaq və yekün imtahanları üzrə

- imtahanlara hazırlıq işlərinin təşkili ilə bağlı tədbirlərdə iştirak edilmişdir.
- IX və XI siniflərdə təhsil alan şagirdlərlə bağlı məlumatlar yığılmış, yoxlanılmış və dəqiqləşdirilərək Monitorinq və qiymətləndirmə şöbəsinə verilmişdir.
- şöbə əməkdaşları imtahan rəhbərləri kimi Neftçala, Şəki, Xızı, Ağdam, Oğuz, Goranboy, Bərdə, Qax, Masallı, Abşeron, Sabirabad və Qazax rayonlarında və Bakı, Sumqayıt və Naftalan şəhərlərində yoxlama və yekun imtahanların aparılmasını təşkil etmişlər.
- Bakı şəhəri, Biləsuvar, Balakən, Ağdaş və Bərdə rayonlarında ümumi təhsil pilləsi üzrə mərkəzləşdirilmiş payız buraxılış test imtahanlarının təlimata uyğun keçirilməsinə şöbənin əməkdaşları rəhbərlik etmişlər.
- “Məktəb uşağın dostudur” Proqramı çərçivəsində UNİCEF və Valideyn-Müəllim Assosiasiyası (VMA) ilə birgə respublikanın 51 məktəbində hazırlanmış sorğu blankları əsasında məktəbin direktoru, 10 müəllim, 10 şagird, 10 valideyn arasında sorğu keçirilmiş, məktəblər üzrə sorğular ümumiləşdirilmiş və yekün hesabat hazırlanaraq VMA-ya təqdim edilmişdir.

Dövlət qulluğunun 6-8-ci təsnifatı üzrə (TN və Bakı şəhəri uzrə Təhsil İdarəsi) TİMS şöbəsində inzibati vəzifələrin tutulması məqsədilə işçilərin qulluq funksiyaları redaktə edilərək Strateji təhlil, planlaşdırma və kadrların idarəolunması şöbəsinə təqdim edilmişdir.

Təhsil və qeyri-təhsil sektorunda çalışan elmlər doktorları və xarici ölkələrdə yaşayan azərbaycanlı alimlərlə bağlı (adı, atasının adı, soyadı, doğum tarixi, doktorluq dissertasiyasının şifri və ixtisasının adı, müdafiə ili, işlədiyi müəssisə, vəzifəsi, ştatı və s.) məlumatlar yığılmış, sistemləşdirilmiş və kitab şəklində çap olunması üçün “Şərq-Qərb” nəşriyyatına təqdim edilmişdir.

“Təhsil Ensiklopediyası” üzrə “Azərbaycan Sovet Ensiklopediyası” (10 cildlik), “Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası” (2 cildlik), “Azərbaycan Qadını Ensiklopediyası”nda təhsillə bağlı tanınmış şəxslər haqqında məlumatlar elektron formada hazırlanmışdır.

TİMS verilənlər bazasından istifadə edərək:

- Beynəlxalq qiymətləndirmə TİMSS və PİRLS layihəsi üçün 2010/2011-ci tədris ilində 4-cü siniflərdə təhsil alan şagirdlər haqqında (Naxçıvan MR daxil olmaqla) məlumat hazırlanıb Monitorinq və qiymətləndirmə şöbəsinə təqdim olunmuşdur.
- Rasionallaşdırma ilə bağlı siniflərində 20-dən az şagirdi olan ümumtəhsil məktəblərinin siyahısı hazırlanıb və rəhbərliyə təqdim olunmuşdur.

- Rasionlaşdırma ilə bağlı 100-ə qədər, 101-300, 301-500, 501-800, 801-1500, 1501-2000 və 2000-dən çox şagirdi olan respublika üzrə məktəblərin siyahısı hazırlanıb rəhbərliyə təqdim olunmuşdur.
- 2010/2011-ci tədris ilində respublika üzrə ingilis və rus dilində təhsil alan şagirdlərin sayı haqqında məlumat hazırlanıb Strateji təhlil, planlaşdırma və kadrların idarəolunması şöbəsinə təqdim olunmuşdur.
- 2010/2011-ci tədris ilində ümumtəhsil məktəblərində yoxlama və yekun imtahanların mərkəzləşdirilmiş qaydada aparılması işinin təkmilləşdirilməsi və daha səmərəli təşkili məqsədilə nəzarətçi müəllimlərlə bağlı məlumat hazırlanıb Monitorinq və qiymətləndirmə şöbəsinə təqdim olunmuşdur.
- Respublikanın tam orta və ümumi orta məktəblərinin kodlaşma siyahısı Tələbə Qəbulu Dövlət Komissiyasına təqdim olunmuşdur.
- Məcburi köçkün rayonların təhsil şöbələrində 1991-ci ildən 2011-ci ilədək işə qəbul edilmiş işçilərin adbad siyahısı (rayonlar üzrə) tərtib edilmiş və Strateji təhlil, planlaşdırma və kadrların idarəolunması şöbəsinə təqdim olunmuşdur.
- 2010/2011-ci tədris ilində respublikanı ümumtəhsil məktəblərinin IX, X, XI siniflərdə təhsil alan 13-15 yaşlı şagirdlərin adlı siyahısı müvafiq formada hazırlanaraq Səhiyyə Nazirlinə təqdim olunmuşdur.
- Respublikanın ümumtəhsil məktəblərində direktor vəzifəsində çalışan kadrlar haqqında rayonlar üzrə məlumat hazırlanaraq rəhbərliyə təqdim olunmuşdur.
- Respublikanın ümumitəhsil məktəblərində və təhsil şöbələrində çalışan 65 yaşı tamam olmuş və 2011-ci ilin sonunadək 65 yaşı tamam olacaq müəllimlərin adlı siyahısı müvafiq elektron formada hazırlanıb və Strateji təhlil, planlaşdırma və kadrların idarəolunması şöbəsinə təqdim olunmuşdur.
- Xarici ölkələrdə təhsil almış və müəyyən səbəblərdən təhsilini bitirmədən Azərbaycan Respublikasına qayıtmış və ümumtəhsil məktəblərində təhsilini davam etdirən şagirdlər (AR-ın hansı məktəbində və ümumiyyətlə təhsil alıb almamaqları) haqqında müvafiq xarici ölkələrin ümumtəhsil məktəblərin rəhbərlərinin sorğularına cavab verilmişdir.
- Sabirabad, Salyan, Saatlı, Cəlilabad, Masallı, Xızı, Xaçmaz və Şabran rayonlarının şagirdlərin sayına görə 10 ən böyük məktəbləri və Gəncə şəhər Təhsil İdarəsinin məktəblərinin şəbəkəsi elektron formada Strateji təhlil, planlaşdırma və kadrların idarəolunması şöbəsinə təqdim edilmişdir.
- Respublikanın ümumtəhsil məktəblərində təhsil alan 01.11.2010-cu il tarixinədək 6 yaşı tamam olmamış şagirdlərin adlı siyahısı (məktəblər göstərilməklə) hazırlanıb Kənd rayonları üzrə ümumi təhsil və məktəbəqədər tərbiyə şöbəsinə təqdim edilmişdir.
- Rayon və şəhər təhsil şöbələrində və respublikanın ümumtəhsil məktəblərində çalışan kadrların gender məsələləri ilə bağlı məlumatlar hazırlanaraq Elm şöbəsinə təqdim edilmişdir.
- Müəllimlərin fənlər üzrə paylanması ilə bağlı məlumat hazırlanmış və rəhbərliyə təqdim edilmişdir.

"İlin ən yaxşı müəllimi" müsabiqəsinin II turunun təşkili və keçirilməsində şöbənin əməkdaşları iştirak etmiş və tərtib edilmiş müvafiq sənədləri rəhbərliyə təqdim etmişlər.

“İnformatika” fənni üzrə olimpiadanın müvafiq turlar üçün tapşırıqlarının hazırlanması, işlərin yoxlanılıb qiymətləndirilməsi, respublika turunun təşkili və keçirilməsinə köməklik göstərilmişdir.

Tələbələr arasında proqramlaşdırma üzrə keçirilən olimpiadaların təşkili və keçirilməsində yaxından iştirak edilmişdir.

Beynəlxalq İnformatika Olimpiadasında Azərbaycanı təmsil edəcək komandanın formalaşdırılmasında, onlar üçün təlim-məşqlərin hazırlanmasında iştirak edilmişdir.

“Xalq kompüteri” layihəsi üzrə kompüter alan təhsil işçiləri haqqında məlumatlar TİMS bazası ilə tutuşdurulub, dəqiqləşdirilib və layihənin operatoruna təqdim olunmuşdur. Bütün muqavilələrin (15872-dən artıq) qeydiyyatı aparılmışdır.

Şöbə əməkdaşları aşağıdakı tədbirlərdə iştirak və çıxışlar etmişlər:

- Rabitə və İnformasiya Texnologiyaları Nazirliyində “Elektron hökumət” və “Elektron xidmətlər”lə bağlı keçirilmiş müzakirələrdə;
- AMEA İnformasiya Texnologiyaları İnstitununda təhsildə İKT-nin tətbiqi ilə bağlı keçirilən müzakirələrdə;
- Məktəblilər arasında Taylandda keçirilmiş 23-cü Beynəlxalq İnformatika Olimpiadasında;
- Asiya İnkişaf Bankının Daşkənddə təşkil etdiyi “Ümumi təhsildə İKT: yaxşı təcrübələr” mövzusunda beynəlxalq konfransda;
- Ümumdünya Əqli Mülkiyyət Təşkilatı tərəfindən İsrailin Tel-Əviv şəhərində keçirilmiş Mərkəzi Asiya və Qafqaz regionları üçün innovasiya, əqli mülkiyyətin komersiyalaşdırılması və texnologiyaların ötürülməsi məsələləri üzrə təlim kurslarında;
- Dövlət İnvestisiyaları üzrə Kadr Potensialının Gücləndirilməsi Layihəsi çərçivəsində “Mədəd Azərbaycan” təşkilatı tərəfindən keçirilmiş “İnformasiya sistemlərinin idarə olunması” mövzusunda təlim kurslarında;
- “Doktor Veb” və BestComp Group şirkətlərinin “Dr.Web anti-virus məhsulları vasitəsilə korporativ şəbəkələrin internet-təhlükələrdən mühafizəsi” mövzusunda birgə keçirdikləri seminarda;
- ELS Araşdırmalar Mərkəzinin hazırladığı “Uşaq İnternet Portalı”nın təqdimat mərasimində;
- Multimedia mərkəzinin “İlkaddimlar.com” təhsil portalının təqdimatı mərasimində;
- “Uşaqların internetdə təhlükəsizliyi” mövzusunda keçirilmiş dəyirmi masada;
- Azərbaycan Respublikası Təhsil Problemləri İnstitutunda keçirilmiş dərslik müəllifləri üçün seminarda;
- Təhsil Nazirliyi və Azərbaycan Bank Tədris Mərkəzinin birgə təşkil etdikləri “Statistik təhlil” kurslarında.

**II. İş planına müvafiq olaraq şöbə tərəfindən görülmüş işlər.** “Məktəb şəbəkəsi” hesabat formasına uyğun təlim dilləri üzrə (siniflər göstərilməklə) 2010/2011-cu dərs ilinə dair məlumatlar bazaya daxil edilmişdir. Hazırda 2011/2012-ci dərs ili üçün məlumatlar bazaya daxil edilir.

2010/2011-cu tədris ili üçün TİMS məlumat bazasında olan məlumatlar mütəmadi olaraq dəqiqləşdirilmiş və əlavələr edilmişdir.

Respublikanın ümumtəhsil məktəblərinin 2011/2012-ci dərs ili üçün “Statistika hesabatı” (1-ÜM №-li forma) ilə bağlı məlumatlar bazaya daxil edilmişdir. Yığılmış məlumatlar əsasında məktəblərdə şagird sıxlığı, müəllim-şagird nisbəti, pedaqoji işçilərin, şagirdlərin və siniflərin sayı, məktəb binasının vəziyyəti, texniki təchizatı və İKT avadanlıqlarının sayı ilə bağlı hesabat almaq mümkün olmuşdur.

2010/2011-cu tədris ilində IX və XI sinfi bitirən şagirdlərə verilmiş şəhadətnamə və attestatların seriyaları, nömrələri və fənlər üzrə qiymətləri bazaya daxil edilmişdir.

2011/2012-ci tədris ili üçün respublikanın ümumtəhsil məktəblərinin kadrları (soyadı, adı və atasının adı, tutduğu vəzifə, əmək kitabçasından bəzi məlumatlar, şəxsiyyət vəsiqəsindəki məlumatlar, ümumi və fənlər üzrə dərs saatı, bitrdiyi ali məktəb və ixtisası, bildiyi xarici dil və s.) və məktəbdə təhsil alan şagirdlər haqqında məlumatlar bazaya daxil edilmişdir və mütəmadi olaraq bu məlumatlar yenilənir.

2011/2012-ci tədris ili üçün tam orta və ümumi orta təhsil pillələri üzrə mərkəzləşdirilmiş qaydada keçiriləcək imtahanlarla bağlı IX və XI sinif şagirdləri haqqında məlumatlar dəqiqləşdirilərək Monitorinq və qiymətləndirmə şöbəsinə təqdim edilmişdir.

Təhsil şöbələri üzrə TİMS məlumat bazası yenilənmiş və müvafiq məlumatlar bazaya daxil edilmişdir.

Naxçıvan MR Təhsil Nazirliyinin TİMS sektorunun müdirinə proqram təminatının imkanları izah edilmiş, muxtar respublika üzrə məlumatların toplanması üçün hər cür köməklik göstərilmişdir.

“TİMS-məktəb” proqramının təkmilləşdirilməsi ilə bağlı respublikanın bütün təhsil şöbələrinin, Nazirliyin tabeliyində olan orta ümumtəhsil məktəblərinin, Bakı şəhərinin bütün ümumtəhsil məktəblərinin İKT üzrə məsul şəxslərinə treninq-seminarlar keçirilmişdir və mütəmadi bu iş davam etdirilir.

Təhsil şöbələri, məktəblər, şagird və müəllimlər haqqında mətbuatda yayımlanan materiallar mütəmadi izlənilir və TİMS məlumat bazasına qoşulur.

Orta ixtisas təhsili müəssisələri üzrə məlumat bazasının yaradılması üçün müvafiq proqram təminatının bəzi modulları hazırlanmışdır.

Orta ixtisas təhsili müəssisələri ilə əlaqə yaradılmış, həmin müəssisələr üzrə təyin olunmuş əlaqələndiricilərə verilənlər bazasının strukturu və proqram təminatı ilə işləmək üçün treninq-seminarlar keçirilmişdir.

Orta ixtisas təhsili müəssisələri üzrə verilənlər bazası yaradılmış və bazaya bu müəssisələrdə çalışan bütün kadrlarla bağlı məlumatlar daxil edilmişdir.

Məktəbəqədər təhsil müəssisələri üzrə məlumat bazasının yaradılması üçün müvafiq proqram təminatının bəzi modulları hazırlanmışdır.

R(Ş) T şöbələri üzrə əlaqələndiricilərə məktəbəqədər təhsil müəssisələrinin verilənlər bazasının strukturu və proqram təminatı ilə işləmək üçün treninq-seminarlar keçirilmişdir.

Məktəbəqədər təhsil müəssisələri üzrə verilənlər bazası yaradılmış və bazaya bu müəssisələrdə çalışan bütün kadrlarla bağlı məlumatlar daxil edilmişdir.

Məktəbdənkənar təhsil müəssisələri üzrə məlumat bazasının yaradılması üçün müvafiq proqram təminatının bəzi modulları hazırlanmışdır.

R(Ş) T şöbələri üzrə əlaqələndiricilərə məktəbdənkənar təhsil müəssisələrinin verilənlər bazasının strukturu və proqram təminatı ilə işləmək üçün treninq-seminarlar keçirilmişdir.

Məktəbdənkənar təhsil müəssisələri üzrə verilənlər bazası yaradılmış və bazaya bu müəssisələrdə çalışan bütün kadrlarla bağlı məlumatlar daxil edilmişdir.

Nazirliyin mərkəzi aparatının müvafiq şöbələri TİMS-in mərkəzi bazasına birləşdirilmiş, məlumatlara çıxışları təmin edilmiş və TİMS sistemi ilə işləmək vərdişlərinin öyrədilməsi istiqamətində mərkəzi aparatın işçilərinə müvafiq treninqlər keçirilir.

TİMS-in illik iş planı hazırlanmışdır.

## III. Mövcud problemlər və onların aradan qaldırılması üçün təkliflər.

***Problemlər:***

- Rayon (şəhər) təhsil şöbələrində və məktəblərdə İKT üzrə mütəxəssislərin kifayət qədər olmaması.
- "Təhsil Sektorunun İnkişafı" layihəsi çərçivəsində TİMS alt komponenti üçün nəzərdə tutulmuş vəsaitin ayrılmaması.
- Şəbəkə infrastrukturunun zəif olması.
- Xarici ölkələrin təcrübəsinin öyrənilməsi məqsədilə TİMS şöbəsinin əməkdaşlarının tədris səfərlərinin təşkil olunmaması.

***Təkliflər:***

- Respublikanın bütün təhsil şöbələrində TİMS üzrə ştat vahidinin ayrılması (Naxçıvan MR üzrə bu iş həyata keçirilib).
- TİMS üçün istifadə edilməsi məqsədilə təhsil şöbələrinin İKT avadanlıqları ilə təchizatı.
- Bütün tədris müəssisələrində (ümumtəhsil məktəbləri, texniki peşə, orta ixtisas və ali təhsil müəssisələri) TİMS üzrə əlaqələndiricinin təyin olunması.

## IV. Perspektiv fəaliyyət istiqamətləri.

- TİMS modullarının artırılması və sistemin təkmilləşdirilməsi – müxtəlif təhsil pillələri və təhsil şöbələri üzrə yeni modulların yaradılması üzrə işlərin davam etdirilməsi.
- TİMS şəbəkəsinin qurulması – TN və R(Ş)TŞ üçün lazım olan avadanlıqlarının alınıb quraşdırılması, tələb olunan sistem proqramların və verilənlər bazasının idarəolunması sisteminin alınıb quraşdırılması.
- Sistemin istifadəçilərinin hazırlığı – treninqlərin keçirilməsi.
- TİMS-in idarəetmə strukturunun təkmilləşdirilməsi – R(Ş)TŞ-də TİMS-ə cavabdeh olan İKT üzrə mütəxəssis ştatının ayrılması, TİMS-in fəaliyyəti üçün cavabdehlik sisteminin qurulması.
- Təhsil Sisteminin İnformasiyalaşdırılması idarəsi ilə məlumat mübadiləsinin təşkili.